Ancaq bunu da deməsəm, olmaz. Xəyal Rza "Ölkəm" romansını oxuyandan sonra dedim:

- Xəyal, super oxudun, sağ ol! Bilirsən də bu romansı kim yazıb?

- Yox, - dedi.

- Bəs onda niyə oxuyursan?

- Xoşuma gəlir... ona görə...

- Asəf Zeynallınındı, - dedim.

- Hə... O cavan ölən?..

- Onun başqa əsərlərini necə?

- Yox... elə bildiyim budu...

Təxminən on il qabaq bir neçə ziyalı ilə birlikdə Amerikanın Azərbaycandakı səfirinin Patamdartdakı iqamətində qonaq olanda ondan soruşmuşdum:

- Cənab səfir, Amerika yazıçılarından kimi tanıyırsınız?

- Heç kimi? - cavab vermişdi.

- Drayzeri, Heminqueyi, Folkneri də tanımırsınız?

- Yox, - demişdi.

XXI əsrin ya yaddaşına qurd düşüb, ya da nələr üçünsə boş yer saxlayır, yaddaşını tıxılıtəpili doldurmaq istəmir. Əvvəllər bir hadisə olanda Allahı nəzərdə tutub deyirdik ki, "Şükür məsləhətinə!" İndi də deyək ki, şükür XXI əsrin məsləhətinə! Belə çıxır də...

Türkiyəyə səfərim haqqında yazımda Amerika səfirini elə-belə xatırlamadım... Bir dəfə televiziya kanallarının birində Səməd Səmədovdan soruşdular ki, himnimizin musiqisini, sözlərini kim yazıb? Respublikanın xalq artisti gülə-gülə cavab verdi ki, bilmirəm. Türkiyəyə səfərim haqqında yazımda Səməd Səmədovu da elə-belə xatırlamadım... Şükür zəmanənin məsləhətinə...

Mən Xəyal Rzanı nə Amerika səfiri, nə də Səməd Səmədovla eyniləşdirmək fikrində deyiləm. Çünki Xəyal Drayzeri, Heminqueyi də, Folkneri də yaxşı tanıyır, himnimizin müəlliflərini də. Sadəcə, Xəyal səbəb oldu ki, XXI əsr haqqında bəzi fikirlərimi ortaya qoya bildim - buna görə də sağ olsun...

...İstanbulda tibb elmləri doktoru, professor, bir neçə özəl xəstəxananın sahibi, baş həkimi, Azərbaycanı bütün varlığı ilə sevən, onu gəzib-dolaşmış, gülərüz, istiqanlı Turqut Göksoyla da bizi Xəyal Rza tanış elədi. Onunla "Pendik" bölgə xəstəxanasındakı kabinetində görüşdük. Hələ Bakıda ikən ehtiyatsızlığım ucbatından ağrıyan sol çiynimi rentgenə saldırdı. Mən belə şey görməmişdim. Uzanırsan, düyməni basırlar və səni tabut kimi bir şeyin içinə çəkirlər - başını iki barmaq belə yuxarı qaldıra bilməzsən; qaldırsan alnın elə bil ki, əhləd ağacına dəyəcək. Sonra da "tabutun" içində əcaib-qəraib səslər gəlir və bu, təxminən on dəqiqəyə qədər uzanır. Bu müddətdə gedib o dünyanı görüb qayıtdım. Səsin və işığın sürəti o qədər böyükdür ki... belə olmasaydı on dəqiqəyə bu boyda məsafəni - o dünya ilə bu dünya arasındakı uzun yolu qət etmək mümkün olmazdı...

"Tabutdan" çıxanda yadıma düşdü ki, İstanbuldayam...

Və elə həmin günün axşamı həmin İstanbulda Turqut Göksoyun İlcsamla birlikdə təşkil etdikləri böyük konsertdə xorun və solistlərin ifasında əvvəldən-axıra Azərbaycan musiqisinə qulaq asdıq. Konsert "Ay Laçın" mahnısı ilə başladı. "Araz üstə, buz üstə, kabab yanar köz üstə"..., "Bu dağda ceyran gəzər...", "Nazəndə sevgilim yadıma düşdü..." Xalq və bəstəkar mahnılarımız durna qatarı kimi düzləndi. Türk bacı-qardaşlarımızın ifası məni elə silkələdi ki, yarpaqlarım töküldü - ancaq hər mahnıdan sonra təzədən tumurcuqlayırdım.

Bu konsertə böyük zəhmət çəkilmişdi, pul-para xərclənmişdi. Türk sənətçiləri ən azı iki-üç ay məşq eləmişdilər. Ancaq bu cür yüksək səviyyəli konsert nə zəhmətlə, nə də pulpara ilə heç cür başa gəlməzdi, əgər Azərbaycana sevgiləri olmasaydı. Sevgi isə ortadaydı, hər addımbaşı bunu hiss edirdik, ürəyimiz dağa dönürdü.

Konsertin təxminən iki saatını türklər oxuyandan sonra on dəqiqəlik fasilə elan olundu. İkinci hissədə Elza Seyidcahan çıxdı. Onun oxuduğu şux mahnılar tamaşaçıların qəlbinə gedən qısa yolu ilk dəfədən tapdı. Atatürk haqqında oxuduğu nəğmə isə bütün salonu ayağa qaldırdı və Elza Seyidcahanı sürəkli alqışların müşayiətilə səhnədən yola saldılar.

Yadımdan çıxmamış onu da deyim ki, Elza Seyidcahanın Amerikada yaşayan kiçik, müğənni bacısı Rasimə də konsertin birinci hissəsində çıxış etmişdi. Onun gözəl opera səsini hamı bəyəndi.

Konsertin sonunda Turqut Göksoy kürsüyə qalxıb Azərbaycan-Türkiyə dostluğundan, qardaşlığından, bu münasibətlərin tarixindən, müştərək mədəniyyətimizdən, bir millət, iki dövlət olmağımızdan geniş söhbət açdı. Onun nitqində Azərbaycan sevgisini bütün salon dəstəklədi. Türkiyə Azərbaycanı sevməklə özünü sevir, Azərbaycan da Türkiyəni sevməklə özünü sevmiş olur, - dedi Turqut Göksoy. Düz dedi, eşq olsun. Sonra Turqut bəy sözü Bakıdan gələn qonaqlara verdi. Rəşad Məcid Türkiyə - Azərbaycan doğmalığı barədə çox parlaq, yetkin, səmimi və diplomatik bir nitq söylədi. Onun hər cümləsini alqışlayırdılar. Mən salonda əyləşmişdim. Otuz ildən artıq tanıdığım bu kişi ilə fəxr elədim, öyündüm - yerə-göyə sığmırdım. Mən onu Bakıda, Ağcabədidə, Füzulidə, "525-ci qəzet"in redaksiyasında, küçədə, təyyarədə, Yazıçılar Birliyində, müxtəlif tədbirlərdə görmüşəm. Ancaq türkdilli dövlətlərin paytaxtı hesab etdiyim möhtəşəm İstanbulda, özü də belə bir tədbirdə birinci dəfə görürdüm. O, həm də çox istedadlı və peşəkar qələm sahibidi, respublikamızın ictimai həyatında özünəməxsus yeri var. İnşallah, bu ilin noyabr ayında, dövlətçiliyimizə xidmət eləyən, təsisçisi və baş redaktoru olduğu, ziyalıların bir nömrəli, sevimli qəzeti olan "525-ci qəzet"in iyirmi beş yaşını qeyd edəcəyik. Biz tərəflərdə iyirmi beş yaşı olan oğlanlar haqqında deyirlər: Ərgən oğlandı! "525-ci qəzet"imiz də ərgən bir qəzetimizdir!

Sonra Xəyal Rza məclisin ruhuna uyğun bir neçə kəlmə deyəndən sonra gözəl bir şeir oxudu. Yeri gəlmişkən deyim ki, Xəyalın Türkiyə türkcəsi Rəşaddan da, məndən də yaxşı idi. O gecədə Xəyal Türkiyə türkcəsində yazdığı şeirini oxudu və salondakı türklər onu öz doğmaları kimi bağrına basdı...

Axırda kürsüyə mən çıxdım:

- Salamməleyküm.

Alqışladılar.

- Əziz bacılar, qardaşlar. Türkiyənin problemləri Azərbaycanın, Azərbaycanın problemləri Türkiyənindir.

Alqışladılar. - Rəşadla Xəyal haqq şahidi.

- Əziz bacılar, qardaşlar! Bilirsiniz ki, Azərbaycanın Qarabağ problemi var. Multukultural dəyərlərlə yaşayan Azərbaycan tolerant bir ölkədir. Qarabağ probleminə görə Azərbaycanda yaşayan talışlar, ləzgilər, ruslar, udinlər, gürcülər, yəhudilər və b. talış, ləzgi, rus, udin, gürcü, yəhudi və b. olduqlarını unudub qarabağlı olublar. Beləliklə, bu gün Azərbaycanda on milyon qarabağlı yaşayır. Biz belə hesab eləyirik ki, səksən milyon qarabağlı da Türkiyədə yaşayır!

Bu sözlərdən sonra dik qalxan salonda nələrin baş verdiyindən xəbərim olmadı desəm, inanın. Göz yaşlarımı saxlaya bilmədim, heç cəhd də eləmədim... Mümkün olmayan şeyə cəhd eləmək, mənim yaşımda havaya atılan güllə kimidi - mən də bu gülləni atmadım...

Sonra belə möhtəşəm, gərəkli və vacib bir tədbiri keçirdiklərinə görə doktor, professor Turqut Göksoya dərin təşəkkürümü bildirib onların qarşısında baş əydiyimi dilimə gətirdim.

Adətən deyirlər ki, bu cür tədbirlər xalqları bir-birinə addım-addım yaxınlaşdırır. Ancaq İstanbulda baş tutan bu görüş haqqında addımdan söhbət gedə bilməz - daha böyük ölçülər ortaya gəlməlidir...

*Davamı gələn sayımızda*

**Ədəbiyyat qəzeti.- 2017.- 27 may.- S. 9.**